**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Ticarət və xarici investisiya siyasəti**
**şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Ticarət və xarici investisiya siyasəti şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində ticarət və xarici investisiya siyasəti sahəsində tədbirlərin işlənib hazırlanmasını və işlərin təşkil olunmasını, Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (bundan sonra – ÜTT) üzvolma prosesində yaranan münasibətlərin tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, digər strukturları və strukturuna daxil olmayan tabeliyindəki qurumlar, Nazirliyin təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər (bundan sonra – Nazirliyin strukturları), mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1 ticarət və xarici investisiya siyasəti üzrə tədbirlərin və normativ hüquqi tənzimləmənin işlənib hazırlanmasını, xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulmasını və həyata keçirilməsini təmin edir;

2.1.2. Azərbaycan Respublikasının ÜTT-yə üzvolma prosesi ilə əlaqədar zəruri

tədbirlərin, o cümlədən, qanunvericiliyin ÜTT-nin tələblərinə uyğunlaşdırılması üzrə tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini təmin edir;

2.1.3. müvafiq sahənin inkişafını təmin edir;

2.1.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1 Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1 ikitərəfli və çoxtərəfli xarici ticarət əlaqələrinin həyata keçirilməsi ilə bağlı tədbirləri işləyib hazırlamaq və həyata keçirmək;

3.1.2. xarici ticarət fəaliyyəti və daxili ticarət sahələrində tənzimləməni həyata keçirmək məqsədilə bu sahədə vəziyyəti araşdırmaq, müvafiq tədbirlərin görülməsinə dair təkliflər vermək və onları həyata keçirmək;

3.1.3. xarici ticarət fəaliyyəti və daxili ticarət sahələrində qanunvericilik aktlarının, beynəlxalq müqavilələrin (sazişlərin, kontraktların), təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək, onların razılaşdırılmasını həyata keçirmək, digər orqanlar tərəfindən hazırlanan belə sənədlərə dair rəy və təkliflər vermək;

3.1.4. xarici ticarət sahəsində ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görmək, həmin müqavilələrdə tərəflərin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair vəziyyəti araşdırmaq və zəruri olduğu təqdirdə bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün təkliflər vermək;

3.1.5. daxili ticarət sahəsində dövlət siyasətinin və dövlət tənzimlənməsinin hazırlanması ilə bağlı təkliflər vermək, daxili ticarətin inkişafına dair tədbirlər görmək;

3.1.6. ölkənin daxili bazarının qorunmasına dair təhlillər aparmaq, müvafiq təkliflər hazırlamaq;

3.1.7. beynəlxalq iqtisadi (ticarət) və maliyyə (kredit) təşkilatları ilə, o cümlədən ölkənin üzv olduğu (iştirak etdiyi) digər təşkilatlarla fəaliyyət istiqamətlərinə uyğun əməkdaşlığın təşkili ilə bağlı zəruri tədbirlər görmək, həmin təşkilatlara münasibətlərdə müəyyən edilmiş qaydada ölkənin təmsil olunması üçün təkliflər vermək və bu sahələrdə keçirilən tədbirlərdə səlahiyyətləri daxilində iştirak etmək;

3.1.8. ölkənin dünya ticarət sisteminə inteqrasiyası istiqamətində aparılan fəaliyyəti əlaqələndirmək, ticarət rejiminin təkmilləşdirilməsi məqsədilə təhlillər aparmaq və müvafiq təkliflər hazırlamaq, onların həyata keçirilməsi üçün zəruri tədbirlərin

görülməsini təmin etmək;

3.1.9. ÜTT-yə üzvlüyün sosial-iqtisadi inkişafa təsiri baxımından xarici ölkələrin təcrübəsini öyrənmək, onun milli iqtisadiyyata təsirini təhlil etmək və üzvlükdən sonrakı dövr üçün milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin etmək məqsədilə aidiyyəti üzrə zəruri təkliflər hazırlamaq;

3.1.10. ölkənin ÜTT-yə üzv olması məqsədilə mallar və xidmətlər üzrə təkliflərin hazırlanması işini təşkil etmək;

3.1.11. ticarətin asanlaşdırılması və mövcud prosedurların təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

3.1.12. beynəlxalq nəqliyyat, malların tranziti, habelə xarici ticarət daşımaları ilə bağlı beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında, razılaşdırılmasında, paraflanmasında və həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.1.13. xarici ticarətdə ölkənin rəqabət qabiliyyətinin artırılması, ixrac potensialının inkişaf etdirilməsi, yerli malların və xidmətlərin xarici bazarlara çıxarılması üçün əlverişli şərait yaradılması, ixracatçıların maraqlarının müdafiəsinin təmin olunması məqsədilə tədbirlər görmək;

3.1.14. xarici ticarət fəaliyyəti iştirakçılarının zəruri iqtisadi və hüquqi informasiya ilə təmin edilməsi üçün tədbirlər görmək;

3.1.15. dünya mal və xidmət bazarlarının konyunkturunu təhlil etmək, əldə edilən nəticələrə əsasən fəaliyyət istiqamətləri üzrə təkliflər vermək;

3.1.16. ölkəyə qarşı ticarət sahəsində ayrı-seçkilik hallarının mövcud olub-olmadığını müəyyənləşdirmək, belə hallar aşkarlandıqda onların aradan qaldırılması ilə bağlı təkliflər vermək;

3.1.17. ixrac nəzarəti sahəsində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi ilə bağlı təkliflər vermək;

3.1.18. xarici ticarət fəaliyyətinin tənzimlənməsi tədbirlərinin tətbiq edilməsi haqqında təkliflər hazırlamaq;

3.1.19. xarici ticarət məsələləri ilə əlaqədar beynəlxalq hesabatları müntəzəm təhlil etmək və xarici ticarətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

3.1.20. müvafiq təhlillər əsasında qeyri-neft ixracının artırılması imkanları olan xarici ölkələrdə ticarət nümayəndələrinin təyin olunması ilə bağlı təkliflər vermək;

3.1.21. xarici ölkələrdə ticarət nümayəndələrinin və onların aparatlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər hazırlamaq;

3.1.22. xarici investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi siyasəti ilə bağlı tədbirlərə dair təklifləri hazırlamaq, müvafiq sahədə strategiya

və prioritetləri müəyyən etmək və onların icrası ilə bağlı təkliflər vermək;

3.1.23. ölkədə investisiya imkanlarını araşdırmaq, investisiya tələbatını öyrənmək, investisiya mühitinin yaxşılaşdırılmasına və investisiyaların stimullaşdırılmasına dair təkliflər hazırlamaq;

3.1.24. xarici investisiya fəaliyyəti sahəsində qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənəd layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.1.25. xarici dövlətlərin müvafiq orqanları ilə investisiyaların təşviqi və qorunması haqqında sazişlərin layihələrini hazırlamaq və bununla bağlı danışıqlar aparmaq, bağlanmış müqavilələrin icrasına nəzarəti həyata keçirmək;

3.1.26. xarici investisiya fəaliyyəti sahəsində vəziyyəti araşdırmaq, nəticələrinə dair arayış və hesabatlar hazırlamaq;

3.1.27. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.28. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.1.29. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.30. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.31. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.2. Nazirliyin strukturları tərəfindən qanunvericilik aktlarının, beynəlxalq müqavilələrin, təşkilati-sərəncamverici sənəd layihələrinin hazırlanmasında fəaliyyət istiqamətləri üzrə iştirak etmək, rəy və təkliflər vermək, zərurət yarandıqda bu sahədə mütəxəssislərin cəlb edilməsi üçün Nazirliyin rəhbərliyinə müvafiq təkliflər vermək;

4.1.3. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar

səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.5. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.6. fəaliyyət istiqamətləri üzrə ölkə daxilində və xarici ölkələrdə keçirilən tədbirlərdə və bu kimi tədbirlərin keçirilməsinin təşkilində iştirak etmək;

4.1.7. fəaliyyət istiqamətləri üzrə zəruri mövzular üzrə elmi tədqiqat və sorğuların aparılması üçün Nazirliyin rəhbərliyinə təkliflər vermək;

4.1.8. dövlət orqanlarına, bələdiyyələrə, fiziki və hüquqi şəxslərə müraciətlərin layihələrini hazırlamaq;

4.1.9. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.10. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Ticarət siyasəti sektoru, Ticarət və xarici investisiya rejiminin monitorinqi sektoru, Ümumdünya Ticarət Təşkilatı ilə iş sektoru və Xarici investisiya siyasəti sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən

məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir;

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1.Ticarət siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. ikitərəfli və çoxtərəfli xarici ticarət əlaqələrinin həyata keçirilməsi ilə bağlı tədbirləri işləyib hazırlamaq və həyata keçirmək;

6.1.2. xarici ticarət fəaliyyəti və daxili ticarət sahəsində tənzimləməni həyata keçirmək məqsədilə bu sahədəki vəziyyəti araşdırmaq, müvafiq tədbirlərin görülməsinə dair təkliflər vermək və onları həyata keçirmək;

6.1.3. xarici ticarət sahəsində ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görmək, həmin müqavilələrdə tərəflərin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair vəziyyəti araşdırmaq və zəruri olduğu təqdirdə bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün təkliflər vermək;

6.1.4. daxili ticarət sahəsində dövlət siyasətinin və dövlət tənzimləməsinin hazırlanması ilə bağlı təkliflər vermək, daxili ticarətin inkişafı ilə bağlı tədbirlər görmək;

6.1.5. ölkənin daxili bazarının qorunmasına dair təhlillər aparmaq, müvafiq təkliflər hazırlamaq;

6.1.6. beynəlxalq iqtisadi (ticarət) və maliyyə (kredit) təşkilatları ilə, o cümlədən ölkənin üzv olduğu (iştirak etdiyi) müvafiq təşkilatlarla ticarət sahəsində əməkdaşlığın təşkili ilə bağlı zəruri tədbirlər görmək, həmin təşkilatlarla münasibətlərdə müəyyən edilmiş qaydada ölkənin təmsil olunması üçün təkliflər vermək, keçirilən tədbirlərdə səlahiyyətləri daxilində iştirak etmək;

6.1.7. ticarət rejiminin təkmilləşdirilməsi məqsədilə təhlillər aparmaq, müvafiq təkliflər hazırlamaq və onların həyata keçirilməsi üçün tədbirlər görülməsini təmin etmək;

6.1.8. ticarətin asanlaşdırılması və mövcud prosedurların təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

6.1.9. xarici ticarətdə ölkənin rəqabət qabiliyyətinin artırılması, ixrac potensialının inkişaf etdirilməsi, yerli malların və xidmətlərin xarici bazarlara çıxarılması üçün əlverişli şərait yaradılması, ixracatçıların maraqlarının müdafiəsinin təmin olunması üçün tədbirlər görmək;

6.1.10. xarici ticarət fəaliyyəti iştirakçılarının zəruri iqtisadi informasiya ilə təmin edilməsi üçün tədbirlər görmək;

6.1.11. dünya mal və xidmət bazarlarının konyunkturunu təhlil etmək, əldə edilən nəticələrə əsasən fəaliyyət istiqamətləri üzrə təkliflər vermək;

6.1.12. ölkəyə qarşı ticarət sahəsində ayrı-seçkilik hallarının mövcud olub-olmadığını müəyyənləşdirmək, belə hallar aşkarlandıqda onların aradan qaldırılması ilə bağlı təkliflər hazırlamaq;

6.1.13. ixrac nəzarəti sahəsində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi ilə bağlı təkliflər vermək;

6.1.14. xarici ticarət məsələləri ilə əlaqədar beynəlxalq hesabatları müntəzəm təhlil etmək və xarici ticarətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

6.1.15. Azərbaycan Respublikasının iqtisadi-ticarət əlaqələrini genişləndirmək məqsədilə xarici iqtisadi-ticarət əlaqələrinin vəziyyətini təhlil etmək və qeyri-neft

ixracının artırılması imkanları olan xarici ölkələrdə ticarət nümayəndələrinin təyin olunması ilə bağlı təkliflər vermək;

6.1.16. Azərbaycan mallarının ticarət nümayəndələrinin olduğu ölkələrin bazarlarına çıxışına, həmin bazarlarda tələbata, mövcud təkliflərə və ticarət nümayəndələrinin olduğu ölkələrin idxal-ixrac, eləcə də daxili bazarda satış tələblərinə dair məlumatları ticarət nümayəndələrindən rəsmi qaydada almaqla müvafiq təhlillər aparmaq və təkliflər vermək;

6.1.17. Azərbaycan Respublikasının xarici ticarət siyasətinin prioritet istiqamətləri, bu sahədə mövcud olan qanunvericilik aktları, əsas ixrac məhsulları və digər zəruri məlumatlarla ticarət nümayəndələrinin və onların aparatlarının təmin edilməsini həyata keçirmək;

6.1.18. ticarət nümayəndələrinin və onların aparatlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər hazırlamaq və həyata keçirmək;

6.1.19. fəaliyyət istiqamətləri üzrə ölkə daxilində və xarici ölkələrdə keçirilən tədbirlərdə və bu kimi tədbirlərin keçirilməsinin təşkilində iştirak etmək;

6.1.20. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.21. fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Ticarət və xarici investisiya rejiminin monitorinqi sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktların, təşkilat-sərəncamverici sənədlərin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək, digər orqanlar tərəfindən hazırlanan belə sənədlərə dair rəy və təkliflər vermək;

6.2.2. fəaliyyət istiqamətləri üzrə beynəlxalq müqavilələrin (sazişlərin, kontraktların) layihələrini hazırlamaq, həmin müqavilələrin (sazişlərin, kontraktların) layihələrinin qarşı tərəflə (tərəflərlə) razılaşdırılması məqsədilə müvafiq qaydada danışıqlar aparmaq, digər orqanlar tərəfindən hazırlanan belə sənədlərə dair rəy və təkliflər vermək;

6.2.3. fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin və onların layihələrinin ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, həmçinin ÜTT tələblərinə uyğunluq baxımından ekspertizasını təşkil etmək;

6.2.4. fəaliyyət istiqamətləri üzrə beynəlxalq müqavilələrin müddəalarının

həyata keçirilməsi üçün zəruri tədbirlər görmək, həmin müqavilələrdə tərəflərin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dair vəziyyəti araşdırmaq və zəruri olduğu təqdirdə bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün təkliflər vermək;

6.2.5. fəaliyyət istiqamətləri üzrə hüquqi rejimin mütəmadi monitorinqini həyata keçirmək;

6.2.6. qanunvericilik aktlarının ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılması ilə bağlı təkliflər vermək;

6.2.7. beynəlxalq nəqliyyat, malların tranziti, habelə xarici ticarət daşımaları ilə bağlı beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında, razılaşdırılmasında, paraflanmasında və həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

6.2.8. ticarət fəaliyyətinin tənzimlənməsi tədbirlərinin tətbiq edilməsi haqqında təkliflər hazırlamaq;

6.2.9. xarici ticarət fəaliyyəti iştirakçılarının zəruri hüquqi informasiya ilə təmin edilməsi üçün tədbirlər görmək;

6.2.10. fəaliyyət istiqamətləri üzrə ölkə daxilində və xarici ölkələrdə keçirilən tədbirlərdə və bu kimi tədbirlərin keçirilməsinin təşkilində iştirak etmək;

6.2.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Ümumdünya Ticarət Təşkilatı ilə iş sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. ÜTT-yə üzvolma prosesi ilə əlaqədar milli qanunvericiliyin bu təşkilatın tələblərinə uyğunlaşdırılması üzrə tədbirlər həyata keçirmək;

6.3.2. ölkənin ÜTT-yə üzv olması ilə bağlı mallar və xidmətlər üzrə təkliflərin hazırlanması işini təşkil etmək;

6.3.3. ölkədə tətbiq edilən ticarət rejiminin ÜTT-nin tələbləri baxımından ekspertizasını həyata keçirmək;

6.3.4. ÜTT-yə üzvlük prosesi ilə bağlı işin aidiyyəti üzrə əlaqələndirilməsini təmin etmək;

6.3.5. ölkədə tətbiq edilən ticarət rejiminə dair ÜTT üzvlərinin suallarını cavablandırmaq;

6.3.6. ÜTT-yə üzvlüyün milli iqtisadiyyata təsirini təhlil etmək və üzvlükdən sonrakı dövrdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin etmək məqsədilə

aidiyyəti üzrə zəruri təkliflər hazırlamaq;

6.3.7. ÜTT-yə üzvlüyün sosial-iqtisadi inkişafa təsiri baxımından xarici ölkələrin təcrübəsini təhlil etmək;

6.3.8. fəaliyyət istiqamətləri üzrə ölkə daxilində və xarici ölkələrdə keçirilən tədbirlərdə və bu kimi tədbirlərin keçirilməsinin təşkilində iştirak etmək;

6.3.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.4. Xarici investisiya siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.4.1. xarici investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi siyasəti ilə bağlı tədbirlərə dair təklifləri hazırlamaq;

6.4.2. xarici investisiyaların cəlb olunması üzrə strategiyanın müəyyənləşdirilməsi və həyata keçirilməsi üzrə təkliflər hazırlamaq;

6.4.3. xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunmasının prioritetlərinə dair təhlillər aparmaq, həmin prioritetlərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.4.4. ölkədə investisiya imkanlarını araşdırmaq, investisiya tələbatını öyrənmək, investisiya mühitinin yaxşılaşdırılmasına və investisiyaların stimullaşdırılmasına dair təkliflər hazırlamaq;

6.4.5. xarici investisiya fəaliyyəti sahəsində cari vəziyyəti araşdırmaq, nəticələrinə dair arayış və hesabatlar hazırlamaq;

6.4.6. Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla investisiya əməkdaşlığı üzrə təkliflər hazırlamaq;

6.4.7. dövlətin payı və ya öhdəliyi nəzərdə tutulan xarici investisiya layihələri ilə bağlı təkliflər hazırlamaq;

6.4.8. dövlətin payı və ya öhdəliyi nəzərdə tutulan xarici investisiya layihələrinin icrasının monitorinqinin həyata keçirilməsində iştirak etmək və qarşıya çıxan problemlərin həllinə yardım etmək;

6.4.9. fəaliyyət istiqamətləri üzrə ölkə daxilində və xarici ölkələrdə keçirilən tədbirlərdə və bu kimi tədbirlərin keçirilməsinin təşkilində iştirak etmək;

6.4.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.4.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş

digər vəzifələri yerinə yetirmək.